**LEYLA ABASOVA**
**tarix üzrə fəlsəfə doktoru**
**Bakı Dövlət Universiteti**
**Zahid Xəlilov küç 1148**
**Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müəllimi**
**sg.leyla@gmail.com**

# KİTAB NƏŞRİNDƏ TƏLƏBAT VƏ TƏKLİF PROBLEMİNİN UYĞUNLAŞDIRILMASI

**Xülasə**

Məqalədə Azərbaycanda müstəqillik illərində nəşriyyat sisteminə nəzər salınmış, həmçinin burada 1980-ci illərin sonlarında ölkədə nəşriyyat sistemindəki durum arasında müqayisəli təhlillər də nəzərə çarpır. Əsasən məqalədə kitab nəşrində tələbat və təklif probleminin uyğunlaşdırılması məsələsi təhlilə cəlb olunmuş, problem şərh edilmiş, müəyyən nəticələr əldə edilmişdir.

Müəllif kitab nəşrində təklif və tələbat problemi ən mürəkkəb, lakin onların uyğunlaşdırılması zəruri olan məsələ kimi dəyərləndirir. Müəllif təklif edir ki, bunun üçün kitabçılıq işinin bütüm xüsusiyyətləri nəzərə alınmalı, nəşriyyatlar, poliqrafiya müəssisələri və kitabın təbliği və yayılması ilə məşğul olan mütəxəssislər əlaqəli şəkildə fəaliyyət göstərməlidirlər.

Məqalədə həmçinin qeyd olunur ki, müasir dövrdə kitab nəşrinin vəziyyəti, inkilşaf xüsusiyyətlərinin öyrənilməsi, təklif və tələbat probleminin tədqiqi bir sıra maraqlı, ümumləşdirici fikirlər söyləməyə, təklif və tövsiyələr irəli sürməyə imkan verir.

Müəllif qeyd edir ki, öyrəndiyimiz müasir mərhələdə kitab nəşri sahəsində müəyyən müvəffəqiyyətlər: kitabın ad və tiraj artımı, bədii və poliqrafik icrası, kitabın sahə quruluşu və tipologiyası və s. üzrə qazanılmışdır. Kitabçılıq işində bu komponentlərin bəzilərində çox, bəzilərində isə az nailiyyətlər əldə olunmuşdur.

***Açar sözlər:*** kitab, nəşr, təklif, tələbat, oxucu, redaktor, əsər, naşir, müstəqillik illəri, özəl nəşriyyat sistemi, dövlət nəşriyyatları

Müasir dövrdə, respublikamızın iqtisadiyyatında mövcud çətinliklərlə əlaqədar nəşriyyat işində də çox bir çox problemlər yaranmışdır.

Bu çətinliklərdən çıxmağın yollarını respublikamızın eks (keçmiş) prezidenti, ümummilli liderimiz göstərir: “Keçmişdə nəşriyyat işi dövlətin əlində idi, onun tərəfindən maliyyələşdirilirdi və bunun sayəsində Azərbaycanda həmin sahə çox genişlənmişdi. İndi, dövlətin imkanları məhdudlaşdığı, sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə getdiyimiz bir vaxtda özəl bölməyə geniş imkanlar yaratmağa çalışdığımız və Azərbaycanda kiçik də olsa, özəl bölmənin meydana çıxdığı bir vaxtda biz onun bütün imkanlarını nəşriyyat işinin canlandırılmasına, inkişaf etdirilməsinə, xüsusən kitab nəşrinin genişləndirilməsinə cəlb etməli, yönəltməliyik” [2].

Yeri gəlmişkən qeyd etməliyik ki, indiki şəraitdə ölkəmizin firma və şirkətləri cəmiyyətimiz üçün zəruri elm və bilik sahələri üzrə ədəbiyyat nəşrində iştirak etməli, özlərinin sponsorluq fəaliyyətlərini daha da genişləndirməlidirlər. Doğrudur, bu istiqamətdə kiçicik də olsa nailiyyətlər var. Bu problemlə əlaqədar respublikamızın keçmiş prezidenti H.Ə.Əliyevin fikri çox əhəmiyyətlidir: “İndi respublikamızda xeyriyyəçilik fəaliyyəti genişlənir. Arzu edərdim ki, bizim iş adamları, imkanlı sahibkarlar bütün sahələrdə xeyriyyəçilik fəaliyyəti göstərdikləri kimi bu işdə – kitabların yayılması və nəşri sahəsində də köməkliklərini əsirgəməsinlər. Zənnimcə, bu xeyriyyəçilik sahəsində yaxşı iş ola bilər. Mən iş adamlarını buna dəvət edirəm. Şübhəsiz ki, dövlətin imkanlarından daha da səmərəli istifadə olunmalıdır. Ancaq, bayaq dediyim kimi, indi biz mülkiyyət formasını dəyişdiririk, bazar iqtisadiyyatı yolu ilə gedirik, özəl bölməyə geniş imkanlar yaradırıq və

bundan sonra da yaradacağıq. Ona görə də bunların hamısı ümummilli əhəmiyyət kəsb edən kitab nəşrinə səfərbər edilməli, cəlb olunmalıdır. Ümidvaram ki, belə də olacaqdır!" [2].

Göründüyü kimi, indiki şəraitdə kitab nəşri əsasən iki istiqamətdə aparılmalıdır: birincisi, dövlətin maliyyələşdirdiyi nəşriyyatlar, ikincisi, isə kitab nəşri üzrə özəl bölmənin yaradılması və inkişaf etdirilməsi əsasında [1, 195].

Sahə ilə əlaqədar mütəxəssislərin, alimlərin, nəşriyyat işçilərinin və b. böyük əksəriyyəti indiki şəraitdə kitab nəşri, təbliği və yayılması ilə məşğul olan idarə, müəssisə və birliklərin dövlət tərəfindən maliyyələşdirilməsini zəriri hesab edirlər.

Kitab nəşri ümummilli, ümumdövlət əhəmiyyətli bir iş olduğuna görə bu iş – ideoloji cəhətdən yox, məhz maddi cəhətdən dövlətin və hökumətin qayğısından kənarda qala bilməz. Əlbəttə, dövlətin siyasətini təbliğ edən kitabların nəşri elmi, elmi-texniki, tədris və habelə uşaq ədəbiyyatının nəşri dövlət tərəfindən maliyyələşdirilmişdir. Digər elmlər üzrə kitab nəşrində özəl bölmənin yaradılması və fəaliyyətlərinin zənginləşdirilməsi obyektivdir, bu nəşriyyatların inkişafı üçün ölkədə şərait yaradılmalıdır. Biz belə hesab edirik ki, dövlət bu işə xüsusi əhəmiyyət verir. Belə ki, Azərbaycan Respublikasının eks (keçmiş) prezidenti H.Əliyev 2001-ci il, martın ayının 29-da Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyinin tabeliyində olan bir sıra müəssisələrin özəlləşdirilməsi haqqında sərəncam imzalamışdır. Sərəncamda deyilir: "İqtisadiyyatın liberallaşdırılması, sahibkarlığın genişləndirilməsi və investisiyaların cəlb olunması yolu ilə iqtisadiyyatın daha sürətlə inkişafına nail olmaq və onun səmərəliliyinin artırılmasını təmin etmək məqsədilə və Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsi II Dövlət Proqramı"na uyğun olaraq qərara alıram:

1. Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyinin tabeliyində olan aşağıdakı müəssisələr özəlləşdirilməyə açıq elan edilsinlər:

- "Qızıl Şərq" icarə mətbəəsi;
- "Şərq-Qərb" mətbəəsi;
- 1 saylı mətbəə;
- 3 saylı mətbəə;
- Qəzet çap kombinatı;
- "Aspoliqraf" təmir zavodu;
- "İşıq" nəşriyyatı;
- "Şərq-Qərb" nəşriyyatı;
- "Yazıçı" nəşriyyatı;
- İstehsalat, təchizat və satış idarəsi və s. [3].

Bunun kimi o sərəncam və fərmanlar ölkədə kitab nəşrinə marağı artırmış, yeni-yeni nəşriyyatlar, poliqrafiya birlikləri və şirkətləri yaranmış və fəaliyyətlərini genişləndirmişlər. İndi 200-dən çox özəl nəşriyyat-mətbəə fəaliyyət göstərir. Bunlar kitabçılıq işi ilə bağlı bir çox məsələləri həll etmək imkanlarına malikdir.

Kitab nəşri ilə bərabər, poliqrafiya avadanlıqlarının respublikaya gətirilməsi və nəşriyyat və poliqrafiya müəsissələrinin texnika və texnologiyasının təchizatı da respublikanın poliqrafiya birlikləri və şirkətləri tərəfindən təchiz edilir. İndi respublikamızın nəşriyyatlarında bu yeni texniki avadanlıqla işləməyi bacaran mütəxəssislər olmalıdır. Deməli, yeni texnika və texnologiya üzrə kadr hazırlanması əsas və təxirəsalınmadan həll olunması zəruri olan vəzifədir.

Deməli, kitab nəşri, təbliği və yayılmasının əlaqəli şəkildə təşkili və inkişafı üçün hələ çox iş görmək lazımdır. Bu işlə dövlət və qeyri-dövlət təşkilatlarının fəaliyyətləri də genişləndirilməlidir. Amma kitabçılıq işinin dövrün tələbləri səviyyəsində təşkili ölçülüb-biçilməlidir.

Poliqrafiyamızın yeni texnika və texnologiyalara keçirilməsi proqramı da zəruridir. Texnika təminat və təchizat problemi yaxın gələcək üçün əsaslandırılmış şəkildə həll edilməlidir. Bu məsələlərin həlli vacib olan ümumxalq, ümumdövlət əhəmiyyətli bir işdir. Çünki haqqında geniş danışılan nəşriyyat işinin demokratikləşdirilməsi – sistemin indiki iş praktikasına, hazırda gedən prosesinə uyğun gəlmir. Ona görə də kitab nəşri kompleks şəkildə kökündən dəyişdirilməli həll edilməlidir. Prof. İ.Ö.Vəliyevin fikri bu mənada diqqətəlayiqdir:

“Kitab nəşri gedişinin bütün mərhələləri bir-biri ilə sıx bağlanmalı, əlaqələr yeni prinsip əsasında qurulmalıdır. Özəllikcə də yazar – nəşriyyat, nəşriyyat – redaksiya, nəşriyyat – mətbəə, nəşriyyat – kitab ticarəti qurumları arasında ilişki və münasibətlər yeni tələblərə uyğunlaşdırılmalıdır. Nəşriyyatdaxili işlərin quruluşu və təşkili də yeniləşdirilməlidir. İndiki halda nəşriyyat – redaksiya əlaqələrində meydana çıxan çətinlikləri yalnız inzibati-amirlik metodu ilə qaydaya salmaq mümkündür. Əslində isə təsərrüfathesabı və özünümaliyyələşdirmə sistemində nəşriyyat özünün bütün bölmələri ilə müqavilələr əsasında iş görməlidir. Hər bir əməkdaşın son maaşı və mükafatı onun əməyinin son məhsuluna görə müəyyənləşdirilməlidir. Nə qədər gec deyil, çətin də olsa, bu iş qurulmalıdır. Əks halda, axından geridə qala bilərik” [14, 224].

Müəllif-nəşriyyat münasibətlərində müqavilə məsələsi əsas götürülmüşdür. Yalnız ədəbiyyat növünə deyil, kitabın konkret problemləri, yazılma prosesi və texnologiyası, hazırlıq müddəti nəzərə alınaraq yazarla fərdi iş qurulmalıdır. Çünki indi fəaliyyətdə olan normalarla işləmək düzgün deyil, çünki yazarın hüquqları çox məhdulaşdırılmış, imkanları çərçivəyə salınmışdır.

Müasir dövrdə kitab nəşrinin problemlərindən biri də, nəşriyyat – poliqrafiya münasibətlərinin nizama salınmasıdır. Keçmiş normativ və müqavilə üsulu ilə bu münasibətləri tənzimləmək mümkün deyildir. Ona görə də, konkret nəşriyyat və poliqrafiya müəssisələrinin durum və imkanlarından, əsərin hazırlıq səviyyəsindən və önəmindən asılı olaraq, fərdi müqaviləli iş üsuluna keçilir.

Kitab nəşrində ən çətin problemlərdən biri kitabın yayılması, yəni ticarəti ilə bağlıdır. Kitab ticarəti qurumların ləğvi, kitabın yayılmasını, ticarətini bərbad hala salmışdı. İndiki vəziyyət nəşriyyat və kitab ticarəti üçün çox əlverişsizdir. Çox təəssüf ki, kitaba qarşı son zamanlar göstərilən münasibət acınacaqlı təsir bağışlayır. Bu kitab ilk növbədə kitab mağazalarının qeyri-qanuni özəlləşdirilməsindən başladı. Araşdırmalar göstərir ki, 1997-2000-ci illərdə təkcə Bakı şəhərində 40-a qədər kitab mağazası qeyri-qanuni özəlləşdirilib.

Özəlləşdirmənin qeyri-qanuni sayılmasına əsas, respublikada ən böyük kitab ticarəti təşkilatı “Azərkitab”ın ləğvi və onun tabeliyində olan mağazaların özəlləşdirilməsi barədə Prezident fərmanlarının yalnız 29 amrt 2001-ci ildə imzalanmasıdır... Demək olar ki, bütün kitab mağazaları özəlləşdirildikdən dərhal sonra öz profilini dəyişdilər [12].

2014-cü ildə “28 may” metrostansiyası yaxınlığında Puşkin 26A ünvanında, “AK Center”in 2-ci mərtəbəsində yerləşən ölkəmizdə yeni iri “Kitabevim.az” adlanan kitab mağazasının açılış mərasimi keçirilir. Burada məqsəd oxucuların həm elektron, həm də çap kitab nəşrləri ilə təmin etmək olmuşdur.

Bakı şəhərində 28 avqust 2018-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Bakı Kitab Mərkəzinin açılışını edirlər. Bu Mərkəzin istifadəyə verilməsi kitaba marağı yenidən bərpa etməklə yanaşı, eyni zamanda uşaq və yeniyetmələrdə kitaba olan sevgini artırmaq, onlara mütaliə etmək vərdişləri aşılamaq məqsədi güdür. Təbii ki, bütün bunlar gənc nəslin bilikli, savadlı və yüksək intellektual səviyyədə yetişməsinə xidmət edir.

Biz bu kitab mağazalarının sayını barmaqla sayacaq qədər sadalaya bilərik. Lakin nəzərə alaq ki, 10 milyon əhalisi olan Azərbayacanın kitaba olan tələbatını bu sayca az olan kitab mağazaları ödəyə bilməz. Azərbaycan Televiziyasının müxtəlif özəl və dövlət kanalları mütəmadi olaraq axşamlar xüsusi xəbərlər proqramlarında yeni nəşrlər barədə ətraflı məlumat verməli, bu problemlə bağlı rəngarəng verilişlər hazırlanmalı və efirə təqdim olunmalıdır. Hətta yeni nəşr olunan kitabları hardan ala bilərik ? – oxucu sualına cavab vermək şərtilə.

Göründüyü kimi, kitabın nəşri ilə bərabər onun ticarəti də ciddi problemlərlə üzləşmişdir. Kitabın təbliği, reklamı və oxucu marağının öyrənilməsi indiki halda tamamilə unudulub və yarıtmazdır. Burada da yeni bir elmi prinsip və qanunauyğunluq yoxdur. Müasir yayım və reklam üsulu gücsüz və səmərəsizdir.

Məlum olduğu kimi, kitab müxtəlif elm və texnika sahələri, mövzuları, problemləri üzrə nəşr edilir. Eyni zamanda müxtəlif elm sahələri üzrə nəşr edilən kitablar tiplər, nəşr tipləri üzrə buraxılır. Digər tərəfdən sahələr daxilində kitablar növlər, janrlar, tiplər və nəşr tipləri ilə yanaşı seriyalarla da nəşr edilib yayılır. Bu qeyd etdiyimiz – kitabın sahə quruluşu, tipologiyası və seriyalarla ümumi bir

məqsəd, yəni çap edilmiş ədəbiyyatın səmərəli təbliğinə və yayılmasına oxucular tərəfindən səmərəli istifadəsinə xidmət edir.

Bütün nəşriyyatların (dövlət və özəl) fəaliyyətində də bu cəhətlər əsas götürülür ki, onların çap məhsulları oxucular arasında səmərəli şəkildə yayıla bilsin.

Ancaq indiki mərhələdə ölkəmizdə yuxarıda qeyd etdiyimiz üç istiqamətdə kitab nəşri həyata keçirilə bilir. Aparılan araşdırmalar, xüsusilə çapdan buraxılmış nəşrlərin öyrənilməsi göstərir ki, istər sahələr, istər kitab tipləri və istərsə də kitab seriyaları üzrə kitab nəşri oxucuların tələbatına cavab vermir. Nəşriyyatlar tərəfindən buraxılan və oxuculara təklif edilən ədəbiyyat oxucuların təklifi, yaxud sorğusu və tələbatı üzrə çap edilməlidir. Buna görə də, respublikamızın kitab məhsulu oxucuların ehtiyaclarını ödəmir və ödəyə bilməz.

Eyni zamanda təklif və tələbat probleminin vəziyyətini aydınlaşdırmaq məqsədilə, bu illərdə Azərbaycanda buraxılmış kitab məhsulunu özündə əks edən və üç müxtəlif müəssisə tərəfindən buraxılmış kataloqa əsaslanmağı məqsədəuyğun hesab etdik.

Son illərdə nəşr edilmiş birinci kataloq "Azərbaycan Ensiklopediyası nəşriyyatı" Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən 2000-ci ildə "Yeni kitablar kataloqu" adı ilə (23 səhifə həcmində) nəşr edilmişdir. Bu yeni nəşrlər kataloqunda 1994-2000-ci illərin "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən buraxılmış 56 adda müxtəlif ədəbiyyatın, yəni kitabların annotasiyalı biblioqrafik siyahısı verilmişdir [16, 23].

Nəşrlərin kataloqunda çapdan buraxılmış kitablar üç bölmə: 1) "Ensiklopedik ədəbiyyat və lüğətlər"; 2) "Bədii və elmi-kütləvi ədəbiyyat"; 3) "Uşaq ədəbiyyatı" – daxilində sistemləşdirilmişdir.

Birinci bölmədə "Şəfa ensiklopediyası" (1997), "Fəlsəfə ensiklopedik lüğət" (1997), "Ədəbiyyatşünaslıq: ensiklopedik lüğət" (1998), "Dünya xalqları" (1998), "Uşaq ensiklopediyası" (Kimdir? Nədir? – c.3, 1999), "Azərbaycan Yazıçıları: Ensiklopedik məlumat kitabı" (1995), "Azərbaycan" (Azərbaycan Respublikası haqqında soraqça) (1997), "Dünya dövlətləri" (1999), "Rusca-azərbaycanca geofizika terminlərinin izahlı lüğəti" (1996), "Ananın məlumat kitabı" (1996), ikinci bölmədə M.Füzulinin "Əsərləri" (2 cilddə, 1995), "Füzuli dünyası rəsmlərdə" (Tərtib edənlər: K.Kərimov, H.Həbibov. 1995), Rəşad Nuri Gültəkin "Yarpaq tökümü. Dəyirman" (1994), Y.A.Pompeyev "Qarabağ qan içində" (1996), Yan Vasili "Çingiz xan" (3-cü nəşri, 1998), "Bilqamıs dastanı: Hər şeyi bilən adamın dastanı" (1999), "Hakimlər və hökmlər" (1995), "Deportasiya" (1998), "Qədim Şərq ədəbiyyatı" (1999), Yan Vasili "Kurqanlardan gələn işıq" (1996), Qrünebaum Q.F.Fon "Klassik islam (600-1258-ci illər)", Eldof İsmayıl "Səttar oğlu: Sənədli roman" (1997), M.Sədi Koçaş "Tarixdə ermənilər və türk-erməni münasibətləri" (1998), H.Hüseynzadə (Pompeyin Qafqaza yürüşü) (Drammatik xronika. 1995), T.Z.Rüstəmova "Əski əlifba" (1995), "Xalq təbabəti xəzinəsindən" (1994), A.S.Əliyev "Özün biç, özün tik" (1997), İ.Novruzov "Azərbaycan kartı" (İran xatirələri) (1997), T.Qəhrəmanov "Cəlladımız zalım idi" (1997), Y.Qarayev "Şərqin dahisi" (1996), Q.Kəngərli "Qanlı şənbəyə gedən yol" (Xronika. 1997), "Ailənin intim dünyası" (1994), "Biz öz yolumuza qayıdacağıq" (1997), M.Quliyeva, M.Hacıyeva "Toxuma" (1996), İ.Musayev "Dil, yaddaş, vətən və vətəndaş" (1995), F.Rəhmanzadə "Yol (tarixi – publisistik qeydlər)" (1994); Üçüncü bölmədə - "Qanlı bənövşə (nağıl və hekayələr)" (1996), "Şah və qarışqa" (1995), "Göyçək Fatma (Azərbaycan xalq nağılı)" (1996), İ.Öməroğlu "Qızılqaz əfsanəsi" (1996), "Tap-tapmaca..." (1996), "Loğman" (Azərbaycan xalq nağılı) (1996), İ.Öməroğlu "Sarı buğda" (1996), İ.Öməroğlu "Zalım padşahla oğlu" (Nağıl, 1996), İ.Öməroğlu "Pişik balasının oyunları" (Nağıl, 1996), "Məlikməmməd (Azərbaycan xalq nağılı)" (1996), "Sevdiyim çiçəklər" (1996), Q.Namazov "Yanıltmaclar" (1996), "Sehirli üzük (Azərbaycan xalq nağılı)" (1996), İ.Öməroğlu "Zalım pələng və nəcməli quş" (Nağıl, 1996), "Qara kəl asta gedər. Nənəm, ay işmək qoyun" (1996), "Lətifələr" (1996), "Dəniz səyyahı Sindibadın nağılı" (1996) və s.

Göründüyü kimi, "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyinin "Yeni kitablar" kataloğunda verilmiş kitabların müəyyən hissəsi soraq-məlumat (birinci bölmə), digər hissəsi "Bədii və elmi-kütləvi ədəbiyyatı", üçüncüsü isə "Uşaq ədəbiyyatı"na aiddir.

Deməli, iri dövlət nəşriyyatının kitab məhsulu oxucu qruplarının tələbatının çox cüzi bir hissəsini ödəyir. Problemə kompleks yanaşdıqda aydın olur ki, nəşriyyat yalnız kitabın bir tipi, yəni soraq-

məlumat nəşrləri üzrə cəmi – 11 kitab, 30 adda bədii və elmi-kütləvi və 17 adda uşaq ədəbiyyatı ilə oxucuların tələbatı qətiyyən ödənilə bilməz.

Biz belə hesab edirik ki, kataloqda nəşriyyatın çap nəşrlərinin çox cüzi bir hissəsi verilib. Bu kataloqu nəşr etməkdə məqsəd, nəşriyyatın buraxdığı kitablarla oxucuları tanış etmək, daha doğrusu kitabın yayılmasını, yəni ticarətinə kömək etməkdən ibarət olmuşdur.

İkinci çap edilmiş kitablar haqqında məlumatı əks edən kataloq "Yayım Assosiasiyası" tərəfindən buraxılmışdır [11, 32].

Bu kataloqun 6-cı buraxılışında Azərbaycan, Rusiya və başqa MDB ölkələrində nəşr olunan kataloqlar öz əksini tapmışdır. Burada aşağıdakı sahələr üzrə nəşr olunan kitablar haqqında biblioqrafik məlumat və qısa ensiklopediya verilmişdir:

- Dövlət və hüquq;
- İqtisadiyyat və maliyyə;
-Kiçik və orta biznes;
-Dərs vəsaitləri – bu bölmələr üzrə cəmi 66 adda (Azərbaycan və rus dillərində) ədəbiyyat sistmləşdirilmişdir. Kataloqdakı 66 adda ədəbiyyatın 41-i Azərbaycan dilindədir.

Təhlilə cəlb etdiyim üçüncü kataloq "Azərbaycan şairləri" adı ilə El – Alıiance şirkəti tərəfindən 2003-cü ildə 84 səhifə həcmində çapdan buraxılmışdır. Bu kataloqda ədəbiyyat aşağıdakı bölmələr üzrə verilmişdir:

- Elmi və elmi-kütləvi ədəbiyyat;
- Dərsliklər və dərs vəsaitləri;
- Lüğət və ensiklopediyalar;
- Bədii ədəbiyyat;
- Publisistika;
- Uşaq ədəbiyyatı [7, 84].

"Azərbaycan nəşrləri" kataloqunda 156 adda kitab və kitabçanın biblioqrafik təsviri və çox qısa annotasiya verilib [7, 84].

Əlbəttə, bu cür kataloqlar respublikasa çap edilən bütün nəşrləri əhatə etməyi qarşılarına məqsəd qoymur. Bunların əsas məqsədi yeni çap edilən nəşrlərin satılmasına, yayılmasına kömək etməkdir. Bununla bərabər bu cür nəşrlər kataloqu müəyyən dövr ərzində ölkəmizdə nəşr edilmiş yeni kitablar, onların məzmunu, sahə quruluşu, tipləri barədə məlumat verməklə yanaşı nəşriyyatların fəaliyyətləri haqqında da müəyyən təsəvvür yaradır. Bu mənada belə nəşriyyat və kitab ticarəti kataloqlarının əhəmiyyəti vardır.

Digər tərəfdən indi respublikamızda Dövlət Kitab Palatasının fəaliyyətinin 27 ildən çoxdur ki, dayanması ölkəmizdə nəşr edilən kitab və dövri mətbuat statistikasının da dayanmasına səbəb olmuşdur.

Bu da məlumdur ki, kitab və mətbuat statistikası əsasında kitabçılıq işinin bir çox elmi və praktiki məsələlərinə aydınlıq gətirmək mümkündür.

İndiki mərhələdə kitabçılıq işinin mühüm problemlərindən olan təklif və tələbat probleminin bəzi aspektlərini statistik nəşrlər əsasında aydınlaşdırmaq mümkündür. Məsələn, "Azərbaycan nəşrləri" kataloqu əsasında müəyyənləşdirə bilərik ki, oxucu qruplarının tələbatında müəyyən əhəmiyyət kəsb edən elmi və elmi-kütləvi ədəbiyyat, dərslik və dərs vəsaiti, lüğətlər və ensiklopediyalar nəşr edilmişdir. Məsələn, "Qədim Şərq Ədəbiyyatı" (1999), "Azərbaycan tarixi" (I – V cildlər) (1998-2000), Y.Rüstəmov "Mövlanə Cəlaləddin Ruminin sufilik fəlsəfəsi" (2002), Paskal Loro Fransua Tüal "Geopolitika" (2001), R.Əliyev "Mifoloji şüurun spesifikası" (2001), Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi (2002), C.Mustafayev "Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq" (2002), V.Ömərli "Qarayazı" (2001), T.Svaytoçovski "Rusiya və Azərbaycan sərhədyanı bölgəsi keçid dövründə" (2000), "Azərbaycan tarixinin çağdaş problemləri" (2000), Ə.Salamov "Kargüzarlığın əsasları və çap vasitələrindən istifadə qaydaları" (2002), "Deportasiya" (1998), M.Oruclu "Azərbaycanda və mühacirətdə Müsavat partiyasının fəaliyyəti (1911-1992)" (2001) və s. nəşrlər kitabın elmi, elmi-kütləvi tipi və kitabın sahə quruluşu haqqında az da olsa təsəvvür yaradır.

Kataloqun “Lüğətlər və ensiklopediyalar” bölməsində 22 adda kitab haqqında məlumat əldə edə bilirik. Məsələn, L.Kərimov və M.Mahmudov “Azərbaycanca-rusca, rusca-azərbaycanca lüğət” (2002), O.İ.Musayev “Azərbaycanca-ingiliscə lüğət” (1996), “Müasir ingiliscə-Azərbaycanca, azərbaycanca-ingiliscə lüğət” (2001), O.İ.Musayev “Azərbaycanca-ingiliscə lüğət” (1998), Ə.Mirəhmədov “Ədəbiyyatşünaslıq: Ensiklopedik lüğət” (1998), “Fəlsəfə ensiklopediyası” (1998), “Dünya xalqları” (1998), Ə.Nicat “Dünya tarixçiləri” (1998) və s. nəşrlər son 5-6 ildə respublikamızda nəşr edilən soraq-məlumat nəşrləri haqqında müəyyən təsəvvür yaradır [7, 37-51].

Biz bu nəşrləri oxucu tələbatında, onun ödənilməsində böyük əhəmiyyətini qeyd etməklə bərabər, çox cüzi olduğunu da deməliyik.

Göründüyü kimi, sahəvi ensiklopediyalar, ensiklopedik lüğətlər, mövzu-soraq kitablarının nəşri demək olar ki, yox dərəcəsindədir. İndiki oxucu kateqoriyalarının müxtəlifliyi, elmi məlumatın sürətlə inkişaf etdiyi indiki şəraitdə soraq-məlumat kateqoriyalarına böyük ehtiyac vardır və artmaqda davam edir.

Araşdırdığımız üç nəşr kataloqundan aydın olur ki, qeyd etdiyimiz mövzularda çox az nəşrlərin çapı həyata keçirilmişdir (30-a yaxın).

Kitab nəşrinin inkişafından söhbət gedərkən qeyd etmək lazımdır ki, hələ 1980-ci illərin ortalarından, xüsusilə axırlarında kitab nəşrinin azalmasına təsir göstərən səbəblər çoxalmışdı. Belə ki, kitab nəşrinin tədricən tənəzzülü, enmə meyilləri cəmiyyətdə müəyyən müddət hökm sürmüş mənfi halların məhsuludur: cəmiyyətə az verib, ondan çox qoparmaq faktları, sosial ədalətin pozulması, rəqəmlərin şişirdilməsi, gözdən pərdə asmaq halları, əməyə görə bölgü prinsiplərinin pozulması, istehsal münasibətlərinin ləng inkişaf etməsi və s. amillər kitab nəşrinə, təbliğinə və yayılmasına da öz mənfi təsirini göstərmişdir. Kitab nəşrini dövrün tələbləri səviyyəsində təşkil və inkişaf etdirmək üçün ilk növbədə poliqrafiya bazasını, avtomat axın xətlərini, kadr hazırlanmasını inkişaf etdirmək lazımdır. Səbəb oradan qaldırılsa, nəticəni düzəltmək çətinlik törətməz [1, 154].

Qeyd etmək lazımdır ki, dövlət kitab nəşrinə, təbliğinə və yayılmasına strateji əhəmiyyətli fəaliyyət sahəsi kimi üstünlük verməlidir. Təəssüf ki, indiyə qədər kitab nəşri sahəsində dövlət siyasəti müəyyənləşdirilməyib [9].

Məlumdur ki, 1990-cı illərdə müxtəlif elm və bilik sahələrinə aid, müxtəlif tiplərdə az da olsa kitab çap edilmişdir. Doğrudur, müasir dövrdə kitab az nəşr edilir. Amma müəyyən sahələr üzrə nəşr edilən kitablar öz bədii və poliqrafik tərtibatı ilə seçilir. Bunu 1990-cı illərin ortalarından nəşr edilən ictimai-siyasi, xüsusilə H.Əliyevin fəaliyyəti ilə əlaqədar çap edilən kitablar təsdiq edir: “Qətiyyətin təntənəsi (Sənədli xronika)” (1995, 848 s.); “Azərbaycan: oktyabr – 94, mart – 95: Qəsd: Dövlət çevrilişi cəhdlərinin xronikası” (1995, 816 s.); A.Abbasbəyli, E.Abbasbəyli “Гейдар Алийев и мировая политика” (1997, 328 s.); N.Xusiyev “Heydər Əliyev və Azərbaycan dili” (1997, 288 s.); H.Əliyev “Müstəqillik yolu: Seçilmiş fikirlər” (1997, 136 s.); “Aforizmlər (ingilis, rus və Azərbaycan dillərində)” (1997, 120 s.); “Azərbaycan milli dövlət quruculuğu yolunda (1994-cü il oktyabr, 1995-ci il mart hadisələrinə həsr edilib)” (1996, 368 s.); “Г.Алиев открывает миру Азербайджан” (1994, 176 s.); Q.Əhmədov “Birinci şəxs: prezidentin portret cizgiləri” (1997, 208 s.); “Ağsaqqal sözü” (1998, 168 s.) və s.

Ümumiyyətlə, bu mövzuda ölkəmizdə 200-dən çox kitab, böyük tirajla (hər birinin, bəzisinin 4000-5000 nüsxədən çox), gözəl bədii və poliqrafik tərtibatla nəşr edilmişdir. Müasir dövrdə Qarabağ probleminə, Azərbaycan xalqının və ölkəsinin tarixinə, bəzi maraqlı, əhəmiyyətli mövzulara dair kitablar da nəşr edilmişdir.

1990-cı illərdən dövlət nəşriyyatları digər sahələrə və mövzulara aid bir sıra kitablar nəşr ediblər. Bu nəşrlərin çoxu ayrı-ayrı adamların, sponsorların köməyi ilə çapdan buraxılıb. Məsələn, B.Muradov “Orta məktəblərdə ədəbi əsərlərin öyrədilməsi” (“Maarif” 1992); Y.Axundlu “Tarixi roman yeni mərhələdə” (1980-1990-cı illər) (“Maarif” 1998); Y.Ş.Kərimov “İbtidai siniflərdə ana dilinin tədrisinin metodikası” (“Maarif” 1997); Y.Axundlu “Mənim ədəbi dünyam (ədəbi-tənqidi məqalələr)” (“Maarif”, 1998); M.Nərimanoğlu “Dədə ocağı” (“Gənclik” 1998); N.Ələkbərli “Üç budaq: Ə.Cavad, M.Müşfiq, A.İldırım” (“Gənclik” 1999); “Azərbaycanın Beynəlxaq çoxtərəfli qarşılıqlı əlaqələrində Bakının rolu” (“Elm” 1997); A.İbrahimov, H.Xəlilov “Uşaq tərbiyəsinin bəzi aktual problemləri” (“Elm” 1998) və s.

Əlbəttə, belə nəşrlərin sayını artırmaq olar. Nəticə olaraq, onun qeyd etməliyik ki, istər özəl, istərsə də dövlət nəşriyyatları elm sahələrinin əhəmiyyətini, oxucu tələbatlarını nəzərə almadan kitablar nəşr edirlər. Bu da təklif və tələbatda uyğunsuzluq əmələ gətirir.

Prof. B.V.Allahverdiyev çox haqlı olaraq qeyd edir ki, indiki nəşriyyatlar oxucuya, xalqa lazım olmayan kitabları daha çox (pul qazanmağın xatirinə) çap edirlər [10].

Son dövrlərdə, xüsusilə kitab çapı sahəsində disproporsiya (uyğunsuzluq) yaranıb. Tələblə təklifin, düz gəlməməsinin səbəbi budur ki, ədəbiyyatın sahə quruluşu nəşriyyat sistemində nəzərə alınmır. Keçmiş Sovet İttifaqında, o cümlədən Azərbaycanda kitab nəşrində bütün elm və texnika sahələri üzrə uyğunluq prinsipi nəzərə alınırdı.

Kitab nəşrini, təbliğini və yayılmasını dünya standartları səviyyəsində təşkil etmək nəşriyyat işindəki geriliyi aradan qaldırmaq üçün nəşrlərin, müəlliflərin, kitab ticarəti işçilərinin assosiasiyaları (hər sahə üçün) yaradılmalıdır. Bu assosiasiyalar nəşrlərin, müəlliflərin, kitab ticarəti işçilərinin hüquqlarını dövlət səviyyəsində müdafiə edər [9].

Belə bir fikir söyləmək həqiqətə uyğundur ki, indi müxtəlif zümrə və təbəqələrdən böyük əksəriyyət Azərbaycan kitabının inkişafından narahatlığını bildirir. Ana dilində zəruri, vacib, tələbata uyğun gələn kitabın nəşri və yayılması üçün çox az iş görülür. Bu işdə müəyyən irəliləyişə nail olmaq üçün ümumi səylər – kitabşünas alimlərin, naşirlərin, yazıçıların, jurnalistlərin, bütün yaradıcı ziyalıların səyləri tələb olunur. İndiki şəraitdə yaradıcı ziyalılar həmişə olduğu kimi xalqın mənəvi, istiqamətləndirici qüvvəsi olmalıdırlar. Millətlərin mənlik: milli şüurun artdığı bir vaxtda respublikamızda ana dilində kitab nəşri, xüsusilə zənginləşdirilməlidir.

Kitab nəşri işini dövrün tələbləri səviyyəsində təşkil etmək üçün hər şeydən əvvəl bu sahənin vəziyyətini dürüst bilmək lazımdır. Həmin sahənin inkişafını təmin edən komponentləri də bilmək vacibdir [1, 155].

Müasir dövrün şəraiti Azərbaycan oxucusu ilə yanaşı, xarici ölkələrin oxucularının da tələbatlarını nəzərə almağı da irəli sürür. Belə ki, Azərbaycanı xarici ölkələr müəyyən qədər tanımalıdır.

Buna görə də, Azərbaycanın tarixi, ölkənin mədəniyyəti, elmi nailiyyətləri, xalqın adət-ənənələri, incəsənəti, musiqisi və s. haqqında kitablar nəşr etmək (əlbəttə, müxtəlif xarici dillərdə: heç olmasa, ingilis, alman, rus və fransız dillərində) olduqca vacibdir. Bu mənada dünyada tanınmış, məşhur Azərbaycan yazıçısı Çingiz Abdullayevin fikri maraq doğurur: “Son illərdə Skandinaviya, ümumən götürəndə isə Avropada müstəqilliyini yenicə bərpa etmiş ölkələrin, xüsusən də Azərbaycanın ədəbiyyatına, mədəniyyətinə böyük marağın olduğunu bildirmək mənim üçün çox xoşdur. Amma təəssüfləndirici haldır ki, klassik şairləri Nizami, Füzulini çıxmaq şərti ilə, xaricilərin Azərbaycan ədəbiyyatı, ümumiyyətlə bizim milli mədəniyyət və tariximiz barədə məlumatları çox məhduddur” [8].

Ç.Abdullayevin digər bir fikri də kitabın yayılması ilə bağlıdır. Onun intervüsundan aydın alır ki, Norveçdə çap edilən kitabların ilk min nüsxəsini dövlət öz hesabına pulla alır və kitabxanalara, təhsil müəssisələrinə paylayır [8].

Göründüyü kimi, kitab nəşrində təklif və tələbat problemi ən mürəkkəb, lakin onların uyğunlaşdırılması zəruri olan məsələdir. Bunun üçün kitabçılıq işinin bütüm xüsusiyyətləri nəzərə alınmalı, nəşriyyatlar, poliqrafiya müəssisələri və kitabın təbliği və yayılması ilə məşğul olan mütəxəssislər əlaqəli şəkildə fəaliyyət göstərməlidirlər.

Müasir dövrdə kitab nəşrinin vəziyyəti, inkişaf xüsusiyyətlərinin öyrənilməsi, təklif və tələbat probleminin tədqiqi bir sıra maraqlı, ümumiləşdirici fikirlər söyləməyə, təklif və tövsiyələr irəli sürməyə imkan verir.

Öyrəndiyimiz müasir mərhələdə kitab nəşri sahəsində müəyyən müvəffəqiyyətlər: kitabın ad və tiraj artımı, bədii və poliqrafik icrası, kitabın sahə quruluşu və tipologiyası və s. üzrə qazanılmışdır. Kitabçılıq işində bu qeyd etdiyim komponentlərin bəzilərində çox, bəzilərində isə az nailiyyətlər əldə olunmuşdur.

Belə ki, 1980-ci illərin ortalarına qədər kitab nəşri kəmiyyət və keyfiyyət baxımından əsasən inkişaf etmiş, ayrı-ayrı sahələr üzrə kitab nəşri həyata keçirilmişdir. Lakin 1980-ci ilin ortalarından, xüsusilə sonundan bu günkü günə qədər kitab nəşri ad və tiraj etibarilə azalmış, bəzi sahələrdə

məsələn, təbiət elmləri, texnika sahələri, kənd təsərrüfatı kimi sahələrdə kitab nəşri acınacaqlı vəziyyətə düşmüş disproporsiya yaranmış, təklif tələbata uyğun olmamışdır.

**Ədəbiyyat:**


1. Allahverdiyev B, Məmmədzadə R. Müasir mərhələdə kitab ticarətinin təşkili. Bakı: Gənclik, 1996, s.167-195.
2. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin miniatür kitabın təqdimat sərgisində çıxışı // “Azərbaycan” qəz., 1995, 6 iyun
3. Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyinin tabeliyində olan bir sıra müəssisələrin özəlləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı: 29 mart, 2001-ci il. // “Respublika” qəz., 2001, 30 mart.
4. Azərbaycan Respublikasında “Dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası prezidentinin fərmanı: 2 yanvar, 2003-cü il // “Azərbaycan” qəz., 2003-cü il, 4 yanvar.
5. “Nəşriyyat işi haqqında” Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı: 15 avqust 2000-ci il. Bakı, 2003, 13 s.
6. Azərbaycanda nəşriyyat işi. Bakı: Yeni Nəsil, 2000, s.106-150.
7. Azərbaycan nəşrləri Kataloq. Bakı: El – Aliance şirkəti, 2003, 84 s.
8. İki arzum var: zəlzələ olmasın, Qarabağı azad edək: Çingiz Abdullayevlə müsahibə. // “Ədəbiyyat” qəz., 2001-ci il 13 aprel.
9. Kitab çapı dövlət əhəmiyyətli bir işdir: “Kitabşünaslıq və nəşriyyat işi” kafedrasının müdiri, tarix elmləri doktoru, professor Bayram Allahverdiyevlə müsahibə. // “Müstəqil qəzet”, 1999, 4-10 fevral.
10. Kitaba maraq niyə azalıb? BDU-nun Kitabşünaslıq və nəşriyyat işi” kafedrasının müdiri, tarix elmləri doktoru, professor Bayram Allahverdiyevlə müsahibə. // “Palitra” qəz., 2001, 13 fevral.
11. Kataloq: Yayım Assosiasiyası. Bakı: 2001, -№6. -31 s.
12. Məmmədzadə R. Azərbaycan kitabının bugünkü faciəsi. // “Vətəndaş” qəz., 2002-ci il, 28 aprel., 4 may.
13. Poliqafiya və kitab mədəniyyəti // “Ədəbiyyat və incəsənət” qəz., 1983-cü il, 20 may.
14. Vəliyev İ.Ö. İnsan: həyatda və sənətdə. Bakı: Günəş, 1998, 248 s.
15. Vəliyev İ. Kitab çoxluğu, kitab yoxluğu. // “Kommunist” qəz., 1989, 5 iyul.
16. Yeni kitablar: Kataloq /tərt.ed.Həqiqət Sadıqova. Bakı: “Azərbaycan ensiklopediyası” Nəşriyyat-Poliqrafiya Birliyi, 2000, 23 s.
17. Tahirqızı Ş. M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti nəşriyyatının nəşrləri: biblioqrafik göstərici (1987-1997-ci illər). Bakı, 1999, 113 s.
18. Nəşriyyat işi haqqında Azərbaycan Respublikasının qanunu (30 may 2000-ci il) // Azərbaycan Respublikasının Qanunlar külliyyatı. III kitab. Bakı: Qanun, 2001, s.522-526.

***L Abasova***

**Adaptation of the demand and supply in the book publication**
**Summary**

The article mentions the publishing system in Azerbaijan over the years of independence and also provides a comparative analysis of the situation in the publishing system of Azerbaijan in the late 1980s. In particular, the article analyzed the question of adapting the problem of supply and demand, the problem was commented, and some results were also obtained.

According to the author, the problem of supply and demand is the most difficult, but their adaptation is a matter of necessity. For this, the author proposes to take into account all the features of the book business, and also suggests that publishers, publishing houses, and people playing a role in book distribution should work together.

The author notes that in the modern era we have gained certain achievements in the field of book publishing: name and tirage of the book, artistic and printing execution, structure and typology of the book, and etc.

Some of these components have high achievements in the field of book work, however, at the same time other components are not successful.

***Keywords:*** book, publication, supply, demand, reader, editor, work, publisher, years of independence, private publishing system, state publishing houses

**Л.Абасова**

**Адаптация проблемы спроса и предложения в книжном издании**
**Резюме**

В статье упоминается издательская система в Азербайджане за годы независимостиитакже приведен сравнительный анализ ситуации в издательской системе Азербайджана в конце 1980-х годов. В частности, в статье был проанализирован вопрос адаптации проблемы спроса и предложения,проблема была прокомментирована,также получены некоторые результаты.

По оценке автора, проблема спроса и предложения является наиболее сложной, но их адаптация является вопросом необходимости. Для этого автор предлагает принять во внимание все особенности книжного бизнеса,атакже предлагает что издатели, издательства, и люди играющие роль в распространение книг должны работать согласованно.

Автор отмечает, что в настоящее время мы добились определенных успехов в области книгоиздания: название и тираж книги, художественно-полиграфическое исполнение, структура и типология книги и т. д.

Некоторые из этих компонентов имеют высокие достижения в области книжной работы, в то время когда некоторые компоненты не достигли успеха.

***Ключевые слова:*** книга, публикация, предложение, спрос, читатель, редактор, работа, издатель, годы независимости, частная издательская система, государственные издательства

Redaksiyaya daxil olma tarixi: 01.04.2019
Çapa qəbul olunma tarixi: 17.04.2019
Filologiya elmləri doktoru, professor Nadir Məmmədli tərəfindən çapa tövsiyə olunmuşdur.